# Müxalifətdən Prezidentə təbrik:

# "İlham Əliyev qüdrətli liderdir"

**Tarixinin ən qüdrətli dövrünü yaşayan Azərbaycan Prezidenti İlham Əliyevin milli maraqlara cavab verən uğurlu daxili və xarici siyasəti nəticəsində regionda yaranan yeni reallıqlar hesabına dünya siyasətinin əhəmiyyətli hissəsinə çevrilib.**

Vətən müharibəsindəki Zəfər, ərazi bütövlüyümüzün bərpası isə İlham Əliyevi ən yeni tarix yazan liderə çevirdi. Prezidentin son 19 il ərzindəki fəaliyyəti, xüsusən torpaqlarımızın işğaldan azad edilməsi istiqamətindəki mahir sərkərdəliyi, uğurlu xarici diplomatiyası ölkədəki müxalifət partiyaları tərəfindən də yüksək qiymətləndirilir. Müxalifət partiyalarının sədrləri hesab edirlər ki, Azərbaycan Prezidenti uzaqgörən siyasəti ilə həm də ölkədə iqtidar-müxalifət münasibətlərinə yeni nəfəs gətirib. Eyni zamanda ciddi islahatlar nəticəsində idarəetmə sistemində nəsil dəyişikliyi başlayıb. Bu prosesdə mühüm məsələ həm də odur ki, Prezident kadr siyasətində partiya faktoruna yox, peşəkarlığa üstünlük verib. Artıq iqtidarla müxalifətin effektiv dialoqu qurulub.

Effektiv idarəetmə sisteminin qurulması üçün mühüm işlər görülüb, müvafiq yol xəritələri yaradılıb və hazırda da uğurla həyata keçirilir.



## Azərbaycan dünya siyasətinin əhəmiyyətli hissəsinə çevrilib

**Arzuxan ƏLİZADƏ,**
*Azərbaycan Milli İstiqlal Partiyasının sədri:*

- Cənab İlham Əliyevin prezidentliyi müddətində bir sıra qlobalmiqyaslı neft və qaz müqavilələri imzalanıb. Azərbaycanın enerji daşıyıcılarının Avropaya nəqli istiqamətində ciddi addımlar atılıb. Yeni neft və qaz boru kəmərlərinin inşası və istifadəyə verilməsi, eləcə də bu sahədə yeni layihələrin icrası Azərbaycanı təkcə regional səviyyədə deyil, qlobal səviyyədə də etibarlı tərəfdaş olaraq tanıdıb.

Bunun sayəsində həm Azərbaycan iqtisadiyyatı güclənib, həm də ölkəmizin dünya çapında möhkəmlənməsi prosesi baş verib. Təbii ki, iqtisadiyyatın inkişafı ilə paralel Azərbaycanın siyasi gücü də artıb. Azərbaycan dünya siyasətinin bir parçasına çevrilib, dövlətimizin apardığı uğurlu siyasət sayəsində yeni tərəfdaşlar qazanıb. İqtisadiyyatın güclənməsi ilə yanaşı, ölkəmizin hərbi gücünün artırılmasına ciddi fikir verilib.

Bu dövrdə Azərbaycan Ordusu, demək olar yenidən qurulub. Müasir silahlarla təchiz olunmuş ordumuz 2020-ci ildə 44 günlük Vətən müharibəsində torpaqlarımızı işğaldan azad edib. Ordumuz Prezident İlham Əliyevin də qeyd etdiyi kimi, dünyanın ən böyük ordularından biri hesab olunan Türkiyə Ordusunun modeli əsasında yenidən formalaşdırılıb. Bütövlükdə qazanılan nailiyyətlər İlham Əliyevin uğurlarıdır. Eləcə də beynəlxalq münasibətlərdə seçilən düzgün istiqamət sayəsində Azərbaycan dünya siyasətinin əhəmiyyətli hissəsinə çevrilib.

Yeri gəlmişkən Prezidentin doğum gününü təbrik edir ona, işlərində uğurlar arzu edirəm. Demokratik, çiçəklənən, iqtisadiyyatı dinamik inkişaf edən, regionun əsas dövlətlərindən biri olan Azərbaycanın daha da güclənməsi istiqamətində apardığı işdə dövlət başçısına müvəffəqiyyətlər diləyirəm.

## Uğurlu siyasət ilə qazanılan Qarabağ Zəfəri

**Qulamhüseyn ƏLİBƏYLİ,**
*Aydınlar Partiyasının sədri:*

- Prezident İlham Əliyevin Ali Baş Komandanlığı və uğurlu siyasəti ilə qazanılan Qarabağ Zəfəri on illərlə erməni işğalı altında olan ərazilərimizin böyük bir hissəsinin azad edilməsi ilə nəticələndi. Azərbaycan regionda qüdrətli və qalib bir dövlətə, xalqımız isə qalib xalqa çevrildi. Cənab İlham Əliyevin siyasəti və diplomatik fəaliyyəti regionda vəziyyəti kökündən dəyişdi, yeni geosiyasi reallıqlar yaratdı.

Bu gün dövlətimiz regionda şərtləri diktə edən aparıcı dövlət kimi çıxış edir. Eyni zamanda Azərbaycanın mövqeləri beynəlxalq arenada ciddi surətdə möhkəmlənib. Azərbaycanın son illərdə iştirakçısı olduğu qlobal layihələr Avropanın enerji təhlükəsizliyi üçün mühüm əhəmiyyət kəsb edir. Regionda bütün beynəlxalq və irimiqyaslı layihələr ölkəmizin birbaşa iştirakı və milli maraqlarımız nəzərə alınmaqla həyata keçirilir. Azərbaycan artıq bütün dünyada bir çox transmilli layihələrin təkcə təşəbbüskarı deyil, həm də uğurlu icraçısı, etibarlı tərəfdaşı kimi tanınır.

Türk dövlətlərinin bir araya gəlməsində, Türk Dövlətləri Təşkilatının formalaşması və inkişafında Prezident İlham Əliyevin siyasi və diplomatik fəaliyyətinin rolu danılmazdır.

Ölkənin daxili siyasi və iqtisadi həyatında da bir çox yeniliklər cənab İlham Əliyevin fəaliyyəti və siyasəti ilə bağlıdır. Hakimiyyət səlahiyyətlərindən sui-istifadə edərək korrupsiyalaşmış məmurların vəzifədən uzaqlaşdırılması və məsuliyyətə cəlb olunması, gənclərin irəli çəkilməsinə üstünlük verilməsi, siyasi sistemdə mühüm dəyişikliklərin başlanması, siyasi partiyalara münasibətin dəyişdirilməsi, dialoq mühitinin yaradılması, sosial-iqtisadi sahələrdə yeniliklər, idarəetmədə struktur dəyişiklikləri də uğurlu siyasətin nəticəsində mümkün olub.

Bu gün cənab İlham Əliyev siyasi və diplomatik fəaliyyətinin ən uğurlu dövrünü yaşayır. Onu doğum günü münasibətilə təbrik edir, dövlətimiz və xalqımız üçün yeni-yeni uğurlara imza atmasını arzulayıram.

## Hər bir azərbaycanlının Prezidenti

**Əsli KAZIMOVA,**
*Azərbaycan Sosial Rifah Partiyasının sədri:*

- Müasir Azərbaycanın son 20 illik fenomenal inkişafı, beynəlxalq arenada tutduğu mövqe, demək olar ki, bütün sahələrdə əldə etdiyi uğurlar birmənalı şəkildə Prezident İlham Əliyevin adı, siyasi qətiyyəti, iradəsi ilə bağlıdır.

2003-cü ildə Ulu Öndərin cənab İlham Əliyev haqqında dediyi "Mən Ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm. Əminəm ki, mənim başa çatdıra bilmədiyim işləri O başa çatdıracaqdır" sözləri uzaqgörənliyin bariz və real nümunəsi sayılmalıdır. Bu günün rakursundan o böyük inamın Azərbaycanın işıqlı gələcəyinin təminatına hədəfləndiyi daha aydın şəkildə ortaya çıxır.

2003-cü ildə ilk dəfə Prezident seçildiyi zaman cənab İlham Əliyevin bəyan etdiyi "Mən hər bir azərbaycanlının Prezidenti olacam" şüarı qısa zamanda əməli fəaliyyətdə öz təsdiqini tapdı. Dövlət başçısının "Dövlət siyasətimizin mərkəzində Azərbaycan vətəndaşının mənafeyi dayanır" deyimi vətəndaşın maraqlarının nəzərə alınmasının, sosial rifahın yüksəlməsinin dövlətin əsas prioriteti olduğunu təsdiqlədi.

Prezident İlham Əliyev vətəndaş məmnuniyyətinin təmini faktorunu "güclü xalq-güclü dövlət" prinsipinə transformasiya etdi. 19 il öncə bütün sahələrdə çoxvektorlu inkişaf mərhələsinin əsasını qoyan Prezident İlham Əliyev müasir Azərbaycanın beynəlxalq iqtisadi-siyasi sistemdəki yerini, nüfuzunu müəyyənləşdirdi, regional güc mərkəzi statusunda qlobal proseslərə təsir imkanlarını tanıtdı. Cənab İlham Əliyev Ulu Öndər Heydər Əliyev ideyalarını yeni dövrün çağırışları və imkanlarına maksimum dərəcədə uyğunlaşdıraraq müstəqil Azərbaycanı XXI əsrin ən uğurlu gənc dövlətlərindən birinə, bəlkə də birincisinə çevirməyə müvəffəq oldu.

Beləliklə, Heydər Əliyevin ümidləri, xalqın etimadı həyatda bütünlüklə təsdiqini tapdı. Prezident İlham Əliyevin bəyan etdiyi genişmiqyaslı layihələrin ötən dövr ərzində uğurla həyata keçirilməsi hər şeydən əvvəl dövlətimizin qüdrətinin artırılmasını, onun iqtisadiyyatının gücləndirilməsini təmin etdi. Heydər Əliyevin "iqtisadiyyatı güclü olan dövlət hər şeyə qadirdir" şüarının ardıcıl surətdə reallığa çevrilməsi yeni dövrün daha da aktuallaşdırdığı çağırış idi. İqtisadi və maliyyə sahəsində uğurlu idarəetmə bütün digər sahələrin inkişafına, yenidən qurulmasına stimul verdi və lazım olan imkanları təmin etdi. Cəmi bir neçə il lazım oldu ki, Azərbaycan beynəlxalq aləm tərəfindən dünyanın ən uğurlu gənc dövləti, çiçəklənən ölkəsi kimi tanınsın. Azərbaycan ən qısa müddətdə, böyük sürətlə Cənubi Qafqazın siyasi-iqtisadi aktoruna çevrildi. Düzgün qurulmuş iqtisadi siyasət milli maraqlara söykənən xarici siyasət kursunun hədəflərini müəyyənləşdirdi. Azərbaycan dünyanın beynəlxalq tribunalarının etibarlı simasına, böyük dövlətlərin və təşkilatların ən yaxın tərəfdaşına çevrildi. Paralel olaraq inkişaf etdirilən daxili və xarici siyasət tandemi 2008, 2013 və 2018-ci illərdə xalqın yenidən öz liderinə ən yüksək etimadı nümayiş etdirməsi ilə nəticələndi. 200 illik tarixində ən böyük hərbi-siyasi qələbəsini yaşayan və yaşadan, ərazi bütövlüyümüzün təmin edilməsində ən böyük rola malik olan müasir dünya tarixinə qızıl hərflərlə öz müzəffər Zəfərini həkk etmiş cənab İlham Əliyev xalqımızın sevgisinin, inamının və etimadının tək ünvanına çevrildi.

Prezident İlham Əliyevin son 19 ildə ölkəmizə qazandırdığı ən böyük uğurlardan biri də bu gün Azərbaycanın müasir beynəlxalq münasibətlər sistemində müstəqil siyasət həyata keçirən güclü və nüfuzlu dövlət, həmçinin etibarlı tərəfdaş kimi tanınmasıdır. Prezident İlham Əliyevin rəhbərliyi ilə həyata keçirilən strateji kurs ölkəmizin maraqlarının təmin olunmasına xidmət edir, qarşıya qoyulan strateji hədəflərə çatmağa imkan verir. Son 19 ildə Azərbaycan bütün ölkə və təşkilatlara münasibətdə vahid mövqedən çıxış edib, dostluq və tərəfdaşlıq münasibətlərini hansısa geostrateji təsirə məruz qalmadan müəyyənləşdirib, ikitərəfli və çoxtərəfli münasibətlərdə, dünya siyasətində fəal təmsilçilikdə ali geosiyasi iradəsini nümayiş etdirib. Respublikamızın daxili və xarici siyasət kursunun strateji episentri milli maraqlardır. Prezident İlham Əliyev dəfələrlə qeyd edib ki, Azərbaycan qarşıdurma, rəqabət məkanı deyil, tərəfdaşlıq və əməkdaşlıq məkanıdır. Xarici siyasətimizin strateji əsaslarından biri olan bu ideya, onun konstruktiv məzmunu və real siyasi proseslərdə özünü doğrultması beynəlxalq münasibətlərin hazırkı mürəkkəb mərhələsində Azərbaycanı strateji tərəfdaşlıq üçün cazibə mərkəzinə çevirir. Nəticə etibarilə, Azərbaycana olan maraq və diqqət ölkəmizin beynəlxalq arenada qazandığı yüksək nüfuzun əyani göstəricisidir. Dövlət başçısının həyata keçirdiyi siyasət Azərbaycanın güclü, bütün məsələlərlə bağlı öz prinsipial mövqeyi olan, dünyada sülhün və təhlükəsizliyin qorunub saxlanmasına, qarşılıqlı faydalı əməkdaşlığın inkişafına mühüm töhfələr verən dövlət kimi tanınmasını və qəbul olunmasını təmin edib. Bununla yanaşı, regionda sabitləşdirici aktor kimi çıxış edən Azərbaycan strateji əhəmiyyətli layihələr reallaşdırıb, Avrasiyanın yeni enerji və nəqliyyat xəritəsini formalaşdıraraq yeni geostrateji əməkdaşlıq platformaları yaradıb, regional və beynəlxalq təhlükəsizliyə fundamental töhfələr verib. Azərbaycanın təşəbbüsü ilə yeni əməkdaşlıq platformaları yaranıb - üçtərəfli, dördtərəfli formatda diplomatik münasibətlərin təməli qoyulub. Azərbaycan yeni geostrateji şəraitdə beynəlxalq dialoq və əməkdaşlıq mərkəzinə çevrilib, qlobal xarakterli - strateji əhəmiyyətli tədbirlərə uğurla evsahibliyi edib. 2011-ci ildə 155 dövlətin dəstəyi ilə BMT-nin Təhlükəsizlik Şurasının qeyri-daimi üzvü seçilməsi səmərəli xarici siyasət kursunun nəticəsi, ölkəmizə yüksək beynəlxalq etimadın göstəricisidir. Respublikamızın 120 dövlətin təmsil olunduğu Qoşulmama Hərəkatına üzv qəbul edilməsi, 2019-2022-ci illərin isə Azərbaycanın Hərəkata sədrlik dövrü kimi müəyyənləşdirilməsi də strateji əhəmiyyətə malikdir. Bu amil Vətən müharibəsi dövründə də özünü bütün sferalardan nümayiş etdirdi. Ötən illər ərzində qazanılan dostluqlar, qurulan əməkdaşlıqlar, yaradılan tərəfdaşlıqlar Azərbaycanın haqlı mübarizəsinə öz dəstəyini göstərdi: bütün beynəlxalq təşkilatlar ölkəmizin öz torpaqlarını düşmən işğalından azad etməsini alqışladı, qiymətləndirdi.

Nəticə etibarilə, 2003-cü ildə ilk dəfə xalqın etimadı əsasında Prezident seçilən, dövlətin inkişaf konsepsiyasını ilmə-ilmə formalaşdıran böyük dövlət xadimi, müasir dövrümüzün Zəfər tarixini və salnaməsini yazan məharətli sərkərdə cənab İlham Əliyevin rəhbərliyi ilə ölkəmiz uğurla inkişaf edərək yeni zirvələr fəth edir. XXI əsrdə müstəqil və qüdrətli Azərbaycanın möhtəşəm tarixi nailiyyətlərinin memarı Prezident İlham Əliyevdir.

## Tarix yaradan və tarix yazan seçilmiş lider

**Əlisahib HÜSEYNOV,**
*Milli Həmrəylik Partiyasının sədri:*

- Bütün Azərbaycan xalqı kimi biz də Milli Həmrəylik Partiyası olaraq doğum günü münasibətilə ən səmimi, ürəkdən gələn xoş hisslərimizlə, diləklərimizlə dövlət başçımız cənab İlham Əliyevi təbrik edir, ona möhkəm cansağlığı və Bütöv Azərbaycan naminə fəaliyyətində yeni uğurlar arzulayırıq.

Prezident İlham Əliyev haqqında fikir bildirmək, danışmaq həm asandır, həm də çətin. Ona görə asandır ki, cənab Prezident bizim həmmüasirimiz, çağdaşımızdır. O, 19 ildəki fəaliyyəti ərzində bütün böyük nailiyyətlərə bizim hər birimizin gözü önündə imza atıb. Dövlət başçımızın bütün uğurlarına şahidlik etmişik, müstəqillik tariximizin ən keşməkeşli, təlatümlü dönəmlərindən onunla birgə keçib gəlmişik.

Çətinlik isə ondadır ki, cənab İlham Əliyev tarix və xalq qarşısında heç bir önəmli xidməti olmayan liderlərdən yox, seçilmiş, missiyalı liderlərdən biridir. İlham Əliyev tarix yaradan, tarix yazan liderdir. Mən bu sözləri pafos xatirinə demirəm və bu sözlərimdə heç bir şablon yoxdur. Onun tarix yaratmağı, ən yeni tariximizi yenidən yazmağı heç bir opponentin, heç bir siyasi rəqibin inkar edə bilməyəcəyi mütləq həqiqətdir.

Azərbaycan xalqı imperiyalar yaratmış, bir-birindən güclü dövlətlərin qurucusu olmuş, tarixdə və bölgə xalqlarının taleyində dərin iz buraxmış, damğasını vurmuş bir xalqdır. Lakin son 200 illik tariximiz isə təəssüf ki, itkilərlə, acılarla, faciələrlə yadda qalıb. Qonşularımızın xain hücumları nəticəsində tarixi torpaqlarımızın böyük bir hissəsini itirə-itirə gəlmişik. Ərazi itkilərimiz XX əsrin 90-cı illərinin əvvəllərinə qədər davam edib.

Biz Birinci Qarabağ müharibəsindən məğlub olaraq çıxdıq, yenə torpaq itirdik, Xocalı, Daşaltı, Meşəli, Malıbəyli, Başlıbel qətliamları ilə üzləşdik və məşhur bir mahnıda deyildiyi kimi "hər parçası bir qonşuda əsir qalan" bir məmləkətə çevrildik, 30 ilə yaxın müddətdə əziklik sindromu ilə yaşadıq. Qarabağ məsələmiz bizim "Qordi düyünü"müzə çevrildi. Bax bu "düyün"ü çözə biləcək bir liderə, sərkərdəyə, tarixi şəxsiyyətə ehtiyacımız var idi. Zaman belə bir lideri məhz İlham Əliyevin simasında, şəxsində qarşımıza çıxardı.

İlham Əliyev hakimiyyətdə olduğu illər ərzində bir çox uğurlara imza atıb. Ancaq onun ən böyük uğuru isə heç şübhəsiz ki, Azərbaycanın ərazi bütövlüyünü bərpa etməsidir. Prezident və Ali Baş Komandan İlham Əliyev 2020-ci il sentyabrın 27-də xalqa müraciətində torpaqlarımızın işğaldan azad ediləcəyinə və Azərbaycanın üçrəngli bayrağının işğal altında olan bütün torpaqlarımızda dalğalanacağına əmin olduğunu bəyan etdi. Otuz ilə yaxın müddətdə işğal altında qalan torpaqlarımız 44 günə düşməndən azad edildi. Şəhidlərimizin, qazilərimizin, əsgər və zabitlərimizin misilsiz şücaəti sayəsində müqəddəs bayrağımız işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzur torpaqlarında ucaldıldı. Mədəniyyət paytaxtımız olan Şuşa öz tarixi sahibinə yenidən qovuşdu. Beləliklə, dövlət başçımız Vətən müharibəsindəki qələbəsi ilə bir neçə əsr davam edən silsilə məğlubiyyətlərdən, faciəli itkilərdən sonra Azərbaycan xalqının taleyində yeni cığır açdı və ölkəmizin ərazi bütövlüyünü bərpa edən lider kimi öz adını tarixə yazdırdı.

44 günlük Vətən müharibəsi bir başqa anlamda tarix yaratmaq aktıdır, tarixi yeni başdan yazmaq hadisəsidir. Tarix yaratmaq isə hər liderin işi deyil. Əksər liderlər tarix səhnəsindən, sadəcə, xronoloji fakt kimi gəlib keçirlər. Tarixi proseslərin gedişatını dəyişmək, tarixi yenidən şəkilləndirmək isə az sayda liderlərə qismət olur. İlham Əliyev də şanlı ordumuza əsl peşəkar sərkərdələr kimi komandanlıq etməklə, xalqımızın milli birliyinə nail olmaqla və ölkəmizin bütün siyasi qüvvələrinin dəstəyini, həmrəyliyini qazanmaqla tarix yaratdı, tarixi yenidən şəkilləndirən liderlərin cərgəsində yer aldı.

Həmin günlərdə dünyanın hansı nöqtəsində yaşamasından asılı olmayaraq bütün azərbaycanlıların dövlətimizin, dövlət başçımızın ətrafında dəmir yumruq kimi birləşməsi və 50-dən artıq siyasi partiyanın Prezident İlham Əliyevə dəstək verməsi, həmrəylik nümayiş etdirməsi bizi Zəfərə qovuşduran əsas amillərdən biri oldu. Bu da Prezident İlham Əliyevin şəksiz uğurlarından biri sayıla bilər, çünki o, ölkəmizdə vətəndaş həmrəyliyinə, müxalifət-iqtidar birliyinə məhz milli maraqların qorunmasına xidmət edən prinsipial mövqeyi ilə nail oldu. Sıravi vətəndaşlar və siyasi qüvvələr düşmənə qarşı düzgün yol tutmasına görə dövlət başçımıza birmənalı dəstək nümayiş etdirdilər. Bu, müstəqillik tariximizdə tamamilə yeni bir presedent idi. Son 30-35 illik tariximizdə ilk dəfə olaraq müxalifət də, cəmiyyət də iqtidarla birləşib çəkici bir yerə vururdu. Əgər bir siyasi lider belə yüksək nəticəyə nail ola bilirsə, bu həmin lider üçün həqiqətən də siyasi triumf sayılır.

İlham Əliyev bu gün də Azərbaycanın maraqlarını qətiyyətlə qorumağa və 44 günlük Vətən müharibəsinin nəticələrini möhkəmləndirməyə davam edir. Anti-Azərbaycan mövqeli qüvvələr və ermənipərəst ölkələr indi daha açıq kontekstlə ölkəmizə qarşı təzyiqlər göstərməyə çalışırlar. Rusiya sülhməramlılarının müvəqqəti yerləşdiyi Azərbaycan ərazilərində faydalı qazıntı yataqlarının ermənilər və havadarları tərəfindən qanunsuz istismarının dayandırılmasını, "Qızılbulaq" və "Dəmirli" yataqlarında monitorinqin keçirilməsinə icazə verilməsini tələb edən azərbaycanlı ekoloqların, qeyri-hökumət təşkilatlarının nümayəndələrinin və ictimai fəalların Şuşa-Laçın yolunda keçirdikləri etiraz aksiyasına qarşı Fransa, Kanada, ABŞ, Litva və digər ölkələrin tutduğu ədalətsiz mövqe Azərbaycana qarşı hücumların başqa bir müstəvidə davam etdiyini göstərir.

Bəzi qonşu ölkələr və qlobal güc mərkəzləri Azərbaycanın 44 günlük müharibədəki qələbəsini və Azərbaycan-Türkiyə müttəfiqliyinin daha da dərinləşməsini nə həzm etmək, nə də ki bağışlamaq istəyirlər. İlham Əliyevin Azərbaycanın suverenliyini möhkəmləndirmək istiqamətində tutduğu qətiyyətli mövqeyi bölgədə maraqları olan Fransa, İran kimi geosiyasi aktorların planlarını pozur deyə, onlar Ermənistanı və separatçı erməniləri əllərində alətə çevirərək Azərbaycana qarşı təzyiqləri getdikcə daha da artırırlar. Lakin Azərbaycan Prezidenti də təcrübəli siyasətçi-qrossmeyestr kimi bu cür təzyiqlərə, məkrli hücumlara artıq çoxdan öyrəncəlidir. Özünün məşhur ifadəsi ilə desək, Vətən müharibəsinin gedişində nəyi nə zaman etmək lazım olduğunu yaxşı bilən cənab İlham Əliyev, hazırkı məqamda anti-Azərbaycan qüvvələrə qarşı da mübarizəni necə aparacağını yaxşı bilir. Biz də ölkənin müxalif siyasi qüvvələrindən biri kimi bu mübarizədə daim dövlətimizin, dövlət başçımızın yanındayıq. Milli Həmrəylik Partiyası olaraq Prezident Əliyevə tutduğu bu yolda, bu mücadilədə uğurlar diləyirik!

## Zəfəri bizə bəxş edən Müzəffər Ali Baş Komandan

**Elşad MUSAYEV,**
*Böyük Azərbaycan Partiyasının sədri:*

- Prezident İlham Əliyevi doğum günü münasibətilə öz adımdan və rəhbərlik etdiyim Böyük Azərbaycan Partiyası adından təbrik edir, ona möhkəm cansağlığı və dövlətimiz üçün gördüyü işlərdə müvəffəqiyyətlər arzulayıram.

İlham Əliyev kifayət qədər təcrübəli, dünyada qəbul olunan, diplomatiyanı gözəl bilən dövlət başçısıdır. Qoşulmama Hərəkatı kimi böyük bir beynəlxalq təşkilatın sədri olması dediklərimizə sübutdur.

44 günlük Vətən müharibəsində qazandığımız tarixi qələbədə Ali Baş Komandan kimi rəhbərlik və təşkilatçılıq qabiliyyəti onu möhtəşəm qələbəmizin simvoluna çevirdi və Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı. Qərarlı, tədbirli, ağıllı və uzaqgörən addımları ilə Zəfəri bizə bəxş etdi. Bununla da torpaqlarımızı işğaldan azad edən dövlət başçısı kimi tarixə düşdü.

Bir daha cənab İlham Əliyevi doğum günü münasibətilə səmimi-qəlbdən təbrik edirəm!

***Əsmər QARDAŞXANOVA,***
***"Azərbaycan"***